*Araz Abdullasoy.* Bəyannamələrdə təsbit edilmiş dövlətlərin öhdəliklərinin hüquqi təbiəti // Azərbaycan Hüquq Jurnalı. 2024 (№3), s. 79-88. DOI: 10.61638/SQFT2534

# BƏYANNAMƏLƏRDƏ TƏSBİT EDİLMİŞ DÖVLƏTLƏRİN ÖHDƏLİKLƏRİNİN HÜQUQİ TƏBİƏTİ

ARAZ ABDULLASOY*

**Annotasiya**

*Məqalədə beynəlxalq münasibətlər sistemində dövlətlərin əlaqələrinin hüquqi tənzimlənməsi prosesində beynəlxalq öhdəliklərin əhəmiyyətindən və öhdəlik institutunun beynəlxalq hüququn əsas subyektlərinin fəaliyyətindəki rolundan, eyni zamanda dövlətlərin öhdəliklərinin yalnız müqavilə tərəfləri çərçivəsində deyil, həm də dövlətlərin erga omnes norması xarakteri daşıyan maraqları nöqteyi nəzərdən əhəmiyyətindən bəhs edilir. Dövlətlərin öhdəliyi ilə bağlı hazırkı tədqiqat mövzusu əsasən beynəlxalq öhdəliklərə həsr olunmuşdur. Məqsəd dövlətlərin beynəlxalq öhdəliklərinin hüquq elmində və dokrinasında araşdırılmasının əhəmiyyətinə diqqət çəkməklə mövzunun aktuallığını qeyd etməkdən ibarətdir. Hüquqi təbiətinə görə müxtəlif formalarda ifadə edilən öhdəliklər adət hüququnun və sazişlərin növündən asılı olmayaraq təhlil edilmişdir.*

**Açar sözlər:** *dövlətlər, Beynəlxalq hüquq, BMT Nizamnaməsi, Beynəlxalq müqavilələr, Konvensiya, Bəyannamə, Beynəlxlq Ədalət Məhkəməsi, Erga omnes öhdəlikləri.*

## *I. Giriş*

Dövlətlərin öhdəliyi dedikdə qədim dünya tarixindən günümüzə qədər formalaşaraq gələn, əsasən adət və müqavilə hüququna aid edilən vəzifə, hərəkət, fəaliyyət başa düşülür. Öhdəliyin hüquqi təbiətinə diqqət etdikdə burada müxtəlif münasibətlərdə rəngarəng hərəkətlərin elementlərini görürük. Belə ki, dövlətlərarası münasibətlərin formalaşması müxtəlif şəraitdən asılı olduğu səbəbindən, bu münasibətlər öhdəliklərin yaranma əsasını müəyyən edir və bu, öhdəliklərin hüquqi təbiətini yaradır. Beynəlxalq hüquq doktrinasında beynəlxalq öhdəliklərin mənbələrinə dair müxtəlif yanaşmalar mövcuddur. Bununla belə, Beynəlxalq Ədalət Məhkəməsinin Nizamnaməsinin 38-ci maddəsində əsas mənbələr qeyd olunmuşdur [7]. Fikrimcə, Nizamnamənin qəbul olunduğu zaman beynəlxalq təşkilatlar institutu kifayət qədər formalaşmadığı üçün həmin müddəada (38-ci maddə) mənbələr sırasında beynəlxalq təşkilatların qərarları qeyd edilməmişdir. Lakin hal hazırkı beynəlxalq münasibətlər sistemində aktiv rol oynayan universal və regional beynəlxalq təşkilatların tənzimləyici funksiyaları və qərarları beynəlxalq hüquq elmində əhəmiyyətə malikdir. Müasir qlobal dünyada beynəlxalq təşkilatlar inkişaf edir və hüquq normaları yaradır. Birləşmiş Millətlər Təşkilatı, Qoşulmamaq Hərəkatı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və s. beynəlxalq təşkilatları qeyd etmək olar. Bu nöqteyi nəzərdən beynəlxalq təşkilatların qətnamələri mənbə olaraq qəbul edilir və xüsusilə qeyd etmək lazımdır ki, Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarında BMT-nin qətnamələrinə çoxsaylı istinadlar edilmişdir. Eyni zamanda

* Hüquq tədqiqatçısı / Hüquq və İnsan haqları İnstitutu / Bakı Dövlət Universiteti / email: elektronpocthuquq@gmail.com

Beynəlxalq Ədalət Məhkəməsinin Nizamnaməsinin 38-ci maddəsində nüfuzlu beynəlxalq hüquqşünas alimlərin elmi əsərləri mənbələrə aid edilir. Beləliklə, beynəlxalq hüquqda öhdəliklərin hüquqi mənbələri əsasən beynəlxalq adət hüququ, beynəlxalq müqavilələr, beynəlxalq hüququn ümumi prinsipləri, beynəlxalq təşkilatların qərarları, beynəlxalq məhkəmələrin, tribunalların və arbitrajların qərarları hesab edilir.

*II. Beynəlxalq hüquqda öhdəlik: növləri və xüsusiyyətləri*

Öhdəliklər xüsusiyyətinə görə pozitiv öhdəliklər, neqativ öhdəliklər, publik öhdəliklər, məcburi öhdəliklər və könüllü öhdəliklər olaraq fərqlənirlər. Tərəflərin dairəsinə görə isə universal xarakterli öhdəliklər, regional xarakterli öhdəliklər, çoxtərəfli öhdəliklər, ikitərəfli öhdəliklər və dövlətlərin birtərəfli qaydada götürdükləri öhdəlikləri qeyd edə bilərik. Beynəlxalq hüquq elmi öhdəliklərin tətbiq dairəsini beynəlxalq müqavilənin predmetinin beynəlxalq ictimai maraqlara və dövlətlərə təsirinə görə müəyyənləşdirir. Burada müqavilə predmetinin əhəmiyyətliliyi əsas meyar olaraq qəbul edilir.

*1.Dövlətlərin öhdəliklərinin inkişaf tarixi*

Dövlətlərin öhdəliklərinin müqavilələrdə təsbit edilməsinin ilkin tarixini hələ qədim dövrlərdə, eramızdan əvvəl XXV-XXIV əsrlərdə Mesopotamiyanın Laqaş və Umma şəhərlərinin sərhədlərinin müəyyən edilməsi ilə bağlı şifahi müqavilə öhdəliyini qeyd etmək olar. Öhdəliklərin yazılı müqavilədə təsbit edilməsinin tarixini eramızdan əvvəl XIII əsrin əvvəllərində Misir Fironu II Ramzes ilə Het Kralı III Hattuşili arasında imzalanan Kadeş müqaviləsi olaraq Misir Het sülh müqaviləsini qeyd edə bilərik [13]. Misir Het sülh müqaviləsində dövlətlərin bir-birinə hücum etməməklə bağlı öhdəliyin yer alması xüsusi önəm daşıyır. Təbii ki, qədim dövrdə tərtib edilmiş öhdəlikləri özündə ehtiva edən müqavilələrin müasir beynəlxalq müqavilələr ilə fərqi vardır. Beynəlxalq müqavilələr tarixindən qeyd edə bilərik ki, 1648-ci ildə Vestfaliya Sülhünün bağlanması ilə bağlı müqavilə Avropa dövlətlərində beynəlxalq müqavilələr hüququnun əsasını qoymuşdur.

*2.Öhdəliklərin hüquqi əsasları*

Hüquq elmində dövlətlərin öhdəliklərinin iki əsas formasını qeyd edə bilərik. Dövlətlərin beynəlxalq öhdəlikləri və dövlətlərin dövlətdaxili öhdəlikləri.

Dövlətlərin dövlətdaxili öhdəlikləri həmin dövlətlərin konstitusiyası ilə müəyyən olunmuş ictimai münasibətlərin tənzimlənməsinin əsas prinsiplərini özündə ehtiva edən normalarda ifadə olunur. Müəlliflərdən professor Əmir Əliyev qeyd edir ki : "18 mart 2009-cu il tarixli referendum Azərbaycan Respublikası Konstitusiyasına dövlətimizin ali məqsədi kimi müəyyən edilən 12-ci maddənin 1-ci hissəsinə "Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin" təmin edilməsinin də dövlətin ali məqsədi kimi müəyyən edilməsini nəzərdə tutan dəyişiklikləri etməklə Azərbaycan Respublikasının sosial dövlət kimi möhkəmlənməsini, dövlətimizin özünün

vətəndaşları qarşısında daha ciddi öhdəlik götürməsi əsaslarını müəyyən etmişdir [2, s. 24] " Burada dövlətin dövlətdaxili öhdəliklərinin konstitusiyada ehtiva edilməsi və konstitusion təminatı təsbit edilmişdir. Qeyd etmək lazımdır ki, konstitusiyası olmayan dövlətlərdə dövlətdaxili öhdəliklər konstitusiya qüvvəli aktlar, xüsusi qanunlar, fərmanlar vasitəsilə də təzahür edir. Dövlətlərin dövlətdaxili öhdəliklərinin meydana gəlməsinin iki forması müəyyən olunur. 1. Dövlətin öz hüquq sistemində adət-ənənələr üzərində illərlə formalaşmış davranış qaydalarından yaratdığı normalardan irəli gələn öhdəliklər (Misal üçün: vətənin müdafiəsi üçün cəlb olunmuş vətəndaşların maddi, texniki, silah və s. təminatının yerinə yetirilməsi dövlətin öhdəliklərinə aiddir.) 2. Dövlətin beynəlxalq müqavilələrdən irəli gələn öhdəlikləri dedikdə dövlətdaxili hüquq sisteminə inkorparasiya (implementasiya və ya transformasiya) edilməsilə yaranmış öhdəliklər nəzərdə tutulur. Beynəlxalq hüquq normalarından dövlətdaxili hüquq normalarına çevrilmiş öhdəliklər eyni zamanda milli hüquqda dövlətin daxili öhdəliyinin təzahür formasıdır. (Misal üçün: İnsan hüquq və əsas azadlıqlarının təminatı, mülkiyyət hüququnun təminatı və s.)

Dövlətlərin beynəlxalq öhdəlikləri əsasən beynəlxalq publik hüququn müəyyən etdiyi ümumi xarakterli məcburi davranışın tənzimlənməsi mənbəyi olaraq başa düşülür. Dövlətlərin beynəlxalq öhdəliklərinin tərkibində dövlətlərin xarici öhdəlikləri də mövcuddur.

Beynəlxalq ictimaiyyətin maraqlarını ifadə edən öhdəliklərin bəyannamələrdə təsbit edilməsi dövlətlərin beynəlxalq öhdəliklərinin yaranmasının əsaslarından hesab edilir. O cümlədən dövlətlərin ikitərəfli, çoxtərəfli bəyannamələrdə götürdükləri öhdəliklərin adət hüququ olmaqla yanaşı, müqavilə öhdəliyinin tələbi nöqteyi nəzərdən də icrası mütləq təmin edilməli olduğu davranışın və hərəkətlərin əhəmiyyətinin beynəlxalq ictimaiyyət və beynəlxalq hüquq üçün önəmini qeyd edə bilərik. Bununla da dövlətlər beynəlxalq münasibətlər sistemində qanunauyğunluğun tarazlığını hər zaman qorumuş olurlar. Burada qeyd etməliyik ki, bəyannamələr üzərindən götürülmüş öhdəliklər əhəmiyyətliliyi baxımından heç də konvension öhdəliklərdən fərqlənməməlidir. Bəyannamələrin beynəlxalq müqavilə kateqoriyasına aid hesab edilməsini 1969-cu il Müqavilələr hüququ haqqında Vyana Konvensiyasının 1-ci a) maddəsinə əsasən müəyyən etmək mümkündür. Konvensiyada qeyd edilir ki: "müqavilə dedikdə dövlətlər arasında yazılı formada bağlanılan və beynəlxalq hüquqla tənzimlənən, bir sənəddə və ya öz arasında əlaqəli olan iki və ya daha çox sənəddə əks olunmasından və konkret adından asılı olmayaraq beynəlxalq razılaşma başa düşülür [11]". Bununla da konvensiyada qeyd olunduğu kimi "sənədin konkret adından asılı olmayaraq beynəlxalq razılaşma" olaraq qəbul edilməsi bəyannamələrin müqavilə kateqoriyasına aid hesab edilməsinin konvensiyanın verdiyi anlayışdan irəli gəldiyini deməyə əsas verir. Beynəlxalq müqavilələr konvensiya, pakt, bəyannamə adları ilə müxtəlif adlarda tərtib olunması, eyni zamanda bu sənədlərin yazılı beynəlxalq razılaşma meyarına uyğun olduğu təqdirdə

beynəlxalq müqavilələr kateqoriyasına aid hesab edilə bilər. Bu nöqteyi nəzərdən beynəlxalq müqavilələrin struktur baxımından fərqli olması, predmetinin və tətbiq dairəsinin müxtəlifliyi onların hüquqi təbiətini fərqli təqdim edə bilməz.

Hər bir beynəlxalq müqavilə kimi bəyannamələr də tətbiq dairəsinə görə universal, regional, çoxtərəfli  və ikitərəfli statusla müəyyən edilə bilər. Eyni zamanda dövlətlər birtərəfli qaydada bəyannamələr qəbul edirlər. Bəyannamələrin universal, regional, ikitərəfli və ya çoxtərəfli razılaşma olmasından asılı olmayaraq hər bir beynəlxalq müqavilənin beynəlxalq ictimaiyyətin maraqlarını nəzərə alınmaqla qəbul edilməsi beynəlxalq hüququn əsas tələbidir. Sənədin beynəlxalq ictimaiyyətin maraqlarını nəzərə alınmaqla qəbul edilməsinin beynəlxalq hüququn əsas tələbi olduğu dedikdə BMT-nin Nizamnaməsinin 103-cü maddəsi nəzərdə tutulur. BMT-nin Nizamnaməsinin 103-cü maddəsinə əsasən "Birləşmiş Millətlər Təşkilatı üzvlərinin bu Nizamnamədən irəli gələn öhdəlikləri ilə onların istənilən digər beynəlxalq sazişdən irəli gələn öhdəlikləri arasında ziddiyyət olduqda, onların bu Nizamnamədən irəli gələn öhdəlikləri üstün qüvvəyə malik olur [12]". Bəyannamələrin müxtəlif predmetlərdə qəbul edilməsi beynəlxalq münasibətlər sistemində çoxşaxəli tənzimlənmə mənbəyi hesab edilə bilər. Belə ki, 1948-ci il Ümumdünya İnsan hüquqları haqqında Bəyannamənin qəbul edilməsi bu növ sənədlərin əhəmiyyətliliyini göstərdi. Ümumdünya İnsan hüquqları haqqında Bəyannamənin universallığı onun predmeti ilə bərabər eyni zamanda insan ləyaqətinin, hüquq və əsas azadlıqlarının ümumbəşəri dəyərlər hesab olunması ilə səciyyələnirdi."Hər bir insan, hazırkı Bəyannamədə ifadə edilən hüquq və azadlıqların tam şəkildə həyata keçirilməsinə şərait yaradan sosial və beynəlxalq idarə üsulu hüququna malikdir [9]" müddəası Ümumdünya İnsan hüquqları haqqında Bəyannamənin 28-ci maddəsində təsbit edilmişdir. Həmin Bəyannamənin predmetində insan hüquqları və əsas azadlıqlarının təminatının universallığını müəyyən etməklə dövlətlərin bu sahədə öhdəliklərini ifadə etmişdir. Bu nöqteyi nəzərdən müəlliflərdən Lətif Hüseynov müqavilə öhdəlikləri və beynəlxalq adətdən irəli gələn öhdəlikləri insan hüquqları sahəsində dövlətlərin beynəlxalq öhdəliklərinin təsnifatına aid hesab edir [6, s. 183]. Eyni zamanda professor Əmir Əliyev "insan hüquq və azadlıqları sahəsində iştirakçı-dövlətlərin BMT Nizamnaməsinə və 1948-ci il tarixli Ümumdünya İnsan hüquqları Bəyannaməsinə müvafiq olaraq fəaliyyət göstərməsi, öhdəliklərini isə 1966-cı il tarixli beynəlxalq paktlar da daxil olmaqla beynəlxalq saziş və bəyannamələrə uyğun formada həyata keçirməsi də 1975-ci il Helsinki Yekun Aktının tərkib hissəsini təşkil etdiyini" qeyd edir [2, s. 26].

Öhdəliklərin müqavilələrdə təsbit edilməsi heç də öhdəliklərin yalnız müqavilə hüququnun institutu olduğunu deməyə əsas vermir. Dövlətlərin öhdəliyi dedikdə dövlətlərarası münasibətlərdə və ya beynəlxalq aləmdə dövlətlərin öhdəliyinin yalnız könüllü olaraq müqavilə əsasında qəbul edilməsi ilə kifayətlənilmir, eyni zamanda dövlətlər arasında qəbul edilmiş və

formalaşmış beynəlxalq adət hüququnun ümumi prinsipləri və normaları ilə müəyyən edilir. Buna misal olaraq dənizə çıxışı olmayan dövlətlərə aid gəmilərin dünyanın böyük su hövzələrindən, okeanlardan istifadə etdikdə hamılıqla qəbul edilmiş beynəlxalq adət hüququna aid öhdəlikləri icra etmələrini qeyd edə bilərik. Digər misal isə müharibə cinayətləri ilə bağlı əsirlərə, girovlara və mülki şəxslərə qarşı qeyri insani rəftarın, işgəncənin yolverilməzliyinin hər bir dövlətin icra etməli olduğu insan hüquqlarının təmin olunması baxımından beynəlxalq öhdəlik hesab olunmasıdır [8]. Deməli öhdəliklər yalnız müqavilə münasibətlərindən irəli gələn hüquqi vəziyyət (hərəkət) deyil, eyni zamanda beynəlxalq hüquqda adət hüququna əsaslanmış hamılıqla qəbul edilmiş hüquqi vəziyyətdir (hərəkətdir). Burada bəşəriyyət qarşısında insanlıq əleyhinə cinayətlərdən çəkindirmə, ekomühitin qorunması və s. kimi mühüm prinsiplər yer almaqdadır. Bu nöqteyi nəzərdən dövlətlərin beynəlxalq ictimaiyyətin maraqlarını mütləq nəzərə almaqla, heç bir dövlətin ərazi yurisdiksiyasına aid olmayan ərazilərdə, yəni beynəlxalq hava məkanında, beynəlxalq su hövzələrində, kosmik səmada və s. aparılan fəaliyyətlər də nəzərdə tutulur. Dövlətlər bu sahələri tənzimləyən beynəlxalq müqavilələri imzalamasalar da, fəaliyyəti beynəlxalq ərazilərə aid olduğu təqdirdə beynəlxalq adət hüququna əməl etmək öhdəliyi daşıyırlar. Bu hətta həmin dövlətlərin iradəsindən kənar tənzimlənmə olsa da, beynəlxalq ictimaiyyətin maraqları və çoxluğunun diqtəsi bunu deməyə əsas verir. Beynəlxalq ictimaiyyətin maraqları dedikdə, eyni zamanda dövlətlərin ümumi birgə maraqları nəzərdə tutulur. Beynəlxalq ictimaiyyətin maraqlarının ifadə forması beynəlxalq hüquqda erga omnes öhdəliklərində təzahür edir.

Erga omnes öhdəliyinin formalaşması məhz beynəlxalq adət hüququnun qaydalarından və daha sonra müqavilə hüququnda təsbit olunmuş normaların hüquqi təbiətində ehtiva edilmişdir. Bura aid terrorizm, ekosid, soyqırım, biyosid, aparteid, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər beynəlxalq ictimaiyyətin ümummaraqları əleyhinə olan əməllər hesab edilir. Beynəlxalq ictimaiyyət qarşısında dövlətlərin götürdüyü öhdəliklərin əhəmiyyəti BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin [1] qərarlarında da vurğulanmışdır. "Barselona Traction" işi ilə bağlı qərarında qeyd edir ki: "Xüsusilə, bir dövlətin bütövlükdə beynəlxalq ictimaiyyət qarşısında olan vəzifələri ilə diplomatik qoruma sahəsində başqa bir dövlətə nisbətən vis- à -vis (bir-birinə) qarşı ortaya çıxan vəzifələr arasında bir fərq qoyulmalıdır. Birincisi, təbiətinə görə bütün dövlətlərin işidir. Bu hüquqların vacibliyini nəzərə alaraq, bütün dövlətlər onların qorunmasında qanuni bir maraq sahibi sayıla bilər, bunlar bütün öhdəliklərdir. Müasir beynəlxalq hüquqda bu cür öhdəliklər, məsələn, təcavüz və soyqırımı aktlarının qadağan edilməsindən, həmçinin köləlik və irqi ayrı-seçkilikdən qorunma da daxil olmaqla əsas insan haqları ilə əlaqəli prinsip və müddəalardan qaynaqlanır." BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin qərarından bu nəticəyə gəlmək olur ki, beynəlxalq hüquq öhdəlikləri müstəsna ikitərəfli xarakterindən daha çox ümumi beynəlxalq ictimaiyyətin maraqlarına

və mənafeyinə aid hesab edilir. Eyni zamanda qeyd edə bilərik ki, BMT-nin Beynəlxalq Ədalət Məhkəməsi "Barselona Traction" işi ilə bağlı qərarında "bütün dövlətlərin işi" olaraq qeyd etməklə bunun bütün dövlətlərin qanuni mənafeləri hesab edildiyini və öhdəliklərin əhəmiyyətinin beynəlxalq ictimaiyyətin maraqlarına aid olduğunu qəbul etmiş oldu. Qeyd olunan əsaslara görə hesab edirik ki, bir dövlət tərəfindən belə bir öhdəliklərin pozulması halında digər dövlətlərin və ümumi beynəlxalq birliyin hüquq və mənafeləri pozulur. Beləliklə, BMT-nin Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən Erga omnes öhdəliyinə əhəmiyyətli dərəcədə qiymət verilməsi ilə beynəlxalq ictimaiyyətin və dövlətlərin ümumi maraqlarının hüquqi müdafiəsi təmin edilmiş oldu. Eyni zamanda beynəlxalq münasibətlər sistemində sülhün və təhlükəsizliyin qorunması universal xarakterli təşkilat olan BMT-nin Nizamnaməsində qeyd edilərək hər bir dövlətin öhdəliyi olduğu təsbit edilmişdir. Belə ki, BMT-nin Nizamnaməsinin 1.1-ci maddəsinə əsasən "Beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və bu məqsədlə: sülhə təhlükənin qarşısını almaq və aradan qaldırmaq üçün və təcavüz aktlarını və digər sülhün pozulması hallarını yatırtmaq üçün səmərəli kollektiv tədbirlər görmək və sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və situasiyaların dinc vasitələrlə, ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasına və ya həll olunmasına müvəffəq olmaq; [12]" beynəlxalq ictimaiyyətin və dövlətlərin ümumi öhdəlikləri olaraq qeyd edilmişdir.

Qeyd etdiyimiz kimi Beynəlxalq hüquqda öhdəliklərin yaranma mənbəyinin iki əsası mövcuddur:

- Beynəlxalq adət hüququndan yaranan öhdəliklər.
- Beynəlxalq müqavilə hüququndan yaranan öhdəliklər

Beynəlxalq adət hüquq normalarından yaranan öhdəliklərin əsası da məhz beynəlxalq münasibətlər sistemində formalaşmış adət hüququndan yaranmış öhdəliklər hesab edilir. BMT-nin Nizamnaməsinin 2.2-ci maddəsində qeyd edilir ki: "Bütün üzvlər, Təşkilata üzvlükdən irəli gələn hüquq və üstünlükləri özlərinə təmin etmək üçün, bu Nizamnaməyə uyğun olaraq üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirirlər" [12].

Beynəlxalq müqavilə hüququnun əsası BMT-nin Nizamnaməsində, (Nizamnamənin 102-ci və 103-cü maddələri), Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasında və Dövlətlər ilə beynəlxalq təşkilatlar arasında və beynəlxalq təşkilatlar arasında müqavilələr hüququ haqqında 1986-cı il Vyana Konvensiyasında təsbit edilmişdir [10].

BMT-nin Nizamnaməsinin qüvvəyə mindiyi andan sonra Təşkilatın istənilən Üzvünün bağladığı hər bir müqavilə və hər bir beynəlxalq saziş mümkün qədər tez bir müddətdə Katiblikdə qeydiyyata alınmalı və Katiblik tərəfindən dərc olunmalıdır [12]. Beynəlxalq hüquqda öhdəliyin əmələ gəlməsinin mənbələrindən hesab olunan beynəlxalq müqavilələrin hüquqi statusu BMT-nin Nizamnaməsi ilə müəyyən olunaraq məhz beynəlxalq hüququn subyektlərinin götürdükləri müqavilə öhdəliklərinin tanınması prinsipini ehtiva

edir. Eyni zamanda BMT Nizamnaməsi öhdəliklərin ierarxiyasını göstərərək BMT Nizamnaməsinin müəyyən etdiyi öhdəliklərin digər müqavilə öhdəliklərindən üstün olduğunu xüsusi qeyd etmişdir (BMT-nin Nizamnaməsinin 103-cü maddəsi) [12].

Beynəlxalq hüquqda öhdəliklərin yaranma əsaslarından hesab olunan müqavilə hüququnun tənzimlənməsi qeyd etdiyimiz kimi Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyası və Dövlətlər ilə beynəlxalq təşkilatlar arasında və beynəlxalq təşkilatlar arasında müqavilələr hüququ haqqında 1986-cı il Vyana Konvensiyasınında təsbit edilmişdir [10]. Beynəlxalq müqavilələr xarakterinə və ərazi yurisdiksiyasına görə müxtəlif formalarda müəyyən olunur. Müqavilələr ikitərəfli, çoxtərəfli, regional və universal xarakterli olur və müqaviləni tərəflər statusunda olan dövlətlərasası və ya dövlətlər ilə beynəlxalq təşkilatlar və beynəlxalq təşkilatlar öz aralarında bağlamaq hüququna malikdirlər. Beynəlxalq müqavilənin anlayışı hər iki konvensiyada qeyd edilir: "Beynəlxalq müqavilə - dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yazılı formada bağlanılan və beynəlxalq hüquqla nizama salınan beynəlxalq razılaşmadır; bu razılaşmanın bir və ya iki yaxud daha çox bir-biri ilə bağlı aktlarda ehtiva olunması və nə cür adlandırılması əhəmiyyət kəsb etmir [11]".

Dövlətlərin beynəlxalq adət hüququ ilə formalaşmış beynəlxalq hüquqi öhdəliklərini vicdanla yerinə yetirmələri - "Pacta sunt servanda [11]" prinsipinnə əsasən Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 26-cı maddəsində qeyd edilmişdir.

Beynəlxalq hüququn subyekti olaraq dövlətlərin öhdəlikləri beynəlxalq normativ hüquqi aktlarda, beynəlxalq hüquqtətbiqetmə aktlarında və birtərəfli aktlarda təsbit edilir. Beynəlxalq normativ hüquqi aktlar beynəlxalq (publik) hüququn mənbəyi hesab olunan hüquqi aktlar hesab olunur. Beynəlxalq normativ hüquqi aktlar ilə bağlı müəlliflərdən E.Əliyev qeyd edir ki: "beynəlxalq müqavilələrdən, beynəlxalq (dövlətlərarası) təşkilatların normativ-məcburi qərarlarından, beynəlxalq məhkəmə orqanlarının aktlarından, beynəlxalq konfrans və yığıncaqların bəzi normativ xarakterli qərarlarından gedir. Adıçəkilən aktlarda beynəlxalq (publik) hüquq subyektlərinin üzərinə beynəlxalq məcburi davranış qaydalarına əməl etmək vəzifəsi – beynəlxalq hüquqi öhdəlik qoyulur. Əgər subyektlər onların üzərinə qoyulmuş beynəlxalq hüquqi öhdəlikləri pozarlarsa, belə halda onların beynəlxalq-hüquqi məsuliyyətə cəlb olunmaları üçün hüquqi əsas yaranır, mövcud olur. Beynəlxalq hüquqi öhdəlik subyektlərin üzərinə həm də beynəlxalq hüquqi adətlərlə qoyula bilər. Belə ki, beynəlxalq hüquqi adətlər beynəlxalq (publik) hüququn mənbə növlərindən biri sayılır və onlar subyektlər üçün məcburi davranış qaydaları müəyyənləşdirir. Əgər subyektlər belə qaydalara əməl etmək öhdəliyini pozarlarsa, bu, beynəlxalq hüquqi məsuliyyətin yaranması üçün hüquqi əsas sayılır" [3, s. 646].

Beynəlxalq müqavilələr dövlətlərin üzərinə öhdəlik qoymaq funksiyasını özündə ehtiva edir. Belə ki, beynəlxalq müqavilələr əsasında təsis edilmiş

beynəlxalq təsisatlar, mexanizmlər öz qərarları ilə üzv dövlətlərin götürdükləri öhdəliklərin icrasının təmin edilməsi məqsədilə qərarlar qəbul etmək imkanına malik olurlar. Burada öhdəliklərdən yaranan törəmə öhdəliklərin meydana gəlməsini müəyyən edirik. Bununla da dövlətlərin öhdəliklərdən irəli gələn qərarlar əsasında yeni yaranmış törəmə öhdəliklərin icra edilməməsi nəticəsində dövlətlərin beynəlxalq hüquqi məsuliyyəti yaranır. BMT-nin Nizamnaməsi əsasında formalaşmış BMT-nin Təhlükəsizlik Şurasının (sülhün və təhlükəsizliyin təmin edilməsi barədə) qəbul etdiyi Qətnamələrinin icra edilməməsi qeyd olunduğu kimi dövlətlərin beynəlxalq öhdəliklərdən yaranan məsuliyyətidir. Eyni zamanda Avropa Şurasının üzv dövlətləri İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyasının (1950-ci il Roma) müddəaları əsasında götürdükləri öhdəliklər ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarları və bu qərarların icra edilməməsi ilə bağlı Avropa Şurasının Nazirlər Kabinetinin yekun qərarlarını qeyd edə bilərik. Müəlliflərdən Antonio Cassese qeyd edir ki: "Beynəlxalq hüququn birinci əsas xüsusiyyəti ondan ibarətdir ki, onun əksər qaydaları ayrı-ayrı şəxslərin deyil, dövlətlərin davranışını tənzimləməyə yönəlib" [5, s. 3].

Birtərəfli aktlar ilə də dövlətlər öhdəliklər götürürlər. Hər hansısa bir məsələ ilə bağlı dövlətlərin birtərəfli öhdəliklərini ehtiva edən bəyannamənin qəbul edilməsini qeyd etmək olar. Müəlliflərdən Vəfaddin İbayev qeyd edir ki: "hər bir dövlət ilk növbədə həm özü özünə, həm də başqa dövlətlərə münasibətdə öhdəlik götürür" [4, s. 339].

Təbii ki beynəlxalq müqavilələrin predmetinə görə fərqli və çox məzmunlu olması labüddür. Məqalənin əvvəlində öhdəliklərin tarixinə toxunmağımız təsadüfi deyildir və yalnız öhdəliklərin tarixinə baxış niyyəti daşımırdı. Qeyd olunan tarixi mənbədən belə qənaətə gəlinə bilər ki, iki dövlət arasında uzun illərlə baş vermiş müharibənin ortaq razılıq əsasında tərəflərin götürdükləri öhdəliklər ilə yekunlaşması və bu öhdəliklərin gələcəkdə icra edilməsi müqavilə hüququ ilə bərabər eyni zamanda adət hüququnun təbətini özündə ehtiva edirdi.

## *III. Nəticə*

Beləliklə, aparılmış tədqiqat nəticəsində qeyd etmək olar ki, müharibənin nəticələrini əks etdirən öhdəliklər ilə təsbit edilmiş müqavilələrin icra edilməsinin imperativliyi digər konvension öhdəliklərdən fərqlənir. Belə ki, konvension öhdəlikləri yüksək tərəflər iradə ifadəsini sərbəst, sülh və təhlükəsiz şəraitdə razılaşdıraraq həyata keçirirlər. Lakin müharibə şəraitində mövcud vəziyyətin diqtəsi ilə qəbul edilmiş müqavilələr hər zaman üstün tərəfin maraqları aspektindən əsas götürülür. Bu da əsasən müharibənin nəticələri barədə qalib tərəfin diqtəsi ilə imzalanmış müqavilələrdə təsbit edilir.

Dövlətlərin beynəlxalq müqavilələrlə götürdükləri öhdəliklərdən daxili qanunvericiliyə istinad olunaraq imtina edilməsinin əsassız hesab edilməsi müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 27-ci maddəsində [11] təsbit edilmişdir. Müqavilələr kateqoriyasına aid hesab olunan

Bəyannamələr də imzalanmış razılaşma hesab edildiyi üçün qeyd edə bilərik ki, müqavilədən asılı olmayaraq beynəlxalq hüquqa əsasən qüvvədə olan öhdəliklərin əhəmiyyəti məhz müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 43-cü maddəsində [11] də təsbit edilmişdir. Beynəlxalq hüququn subyektlərinin pacta sunt servanda prinsipinə vicdanla əməl etmək ənənəsinin dövlətlərin əməkdaşlığının əsas meyarlarına aid olduğunu qeyd edə bilərik.

## ƏDƏBİYYAT (REFERENCES):

1. Barcelona Traction Case Judgment of the International Court of Justice. URL: https://www.icj-cij.org/case/50 (last access: 13.07.24).
2. Human Rights, Textbook (second edition), A. Aliyev, Baku, 2019, pages 352 *(in Azerbaijani / İnsan hüquqları, Dərslik (ikinci nəşr), Ə.Əliyev, Bakı, 2019, 352 səh.)*
3. International (Public) Law Course, Textbook, E. Aliyev Baku 2018, pages 752, (general part, volume I) *(in Azerbaijani / Beynəlxalq (Publik) hüquq kursu, Dərslik, E.Əliyev Bakı 2018, 752 səh, (ümumi hissə I cild)).*
4. International Humanitarian Law, Textbook, V. Ibayev. Baku, 2001, pages 496 *(in Azerbaijani / Beynəlxalq humanitar hüquq, Dərslik, V.M.İbayev. Bakı, 2001, 496 səh.).*
5. International Law, Antonio Cassese, 2005, pages 557. URL:https://books.google.com/books/about/International_Law.html?id=-UacAQAAQBAJ#v=onepage&q&f=false (last access: 13.08.24).
6. International Law, Textbook, L. Huseynov, Baku, 2002, pages 420 *(in Azerbaijani / Beynəlxalq hüquq, Dərslik, L.H. Hüseynov, Bakı, 2002, 420 səh.)*
7. Statute of the International Court of Justice. URL: https://www.icj-cij.org/statute#CHAPTER_II (last access: 15.08.24).
8. Third Geneva Convention of 1949. URL: https://www.un.org/en/genocideprevention/documents/atrocity-crimes/Doc.32_GC-III-EN.pdf (last access: 17.08.24).
9. Universal Declaration of Human Rights of 1948. URL: https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights (last access: 16.08.24).
10. Vienna Convention on the Law of Treaties between States and International Organizations and between International Organizations of 1986.
11. Vienna Convention on the Law of Treaties of 1969. URL:https://legal.un.org/ilc/texts/instruments/english/conventions/1_1_1969.pdf (last access: 15.08.24)
12. UN Charter 26.06.1945 San Francisco, USA. URL: https://www.un.org/en/about-us/un-charter/full-text (last access: 09.08.24).

13. UN, United Nations Gifts ID:UNNY067G / L.V. 23.10.2024. URL: https://www.un.org/ungifts/replica-peace-treaty-between-hattusilis-and-ramses-ii (last access: 11.08.24).

**The legal nature of the obligations of the states established in the declarations**

ARAZ ABDULLASOY*

**Abstract**

*The article highlights the importance of international obligations in the process of legal regulation of relations between states in the system of international relations. The article discusses the role of the institution of obligation in the activities of the main subjects of international law.At the same time, the importance of the obligations of states is discussed not only within the framework of the contracting parties, but also from the point of view of the interests of states, which have the character of an erga omnes norm. The current research topic on the obligation of states is mainly devoted to international obligations. The aim is to highlight the relevance of the topic by drawing attention to the importance of examining the international obligations of states in legal science and doctrine. Obligations expressed in various forms due to their legal nature were analyzed, regardless of the type of customary law and agreements.*

**Keywords:** *States, International law, UN Charter, International treaties, Convention, Declaration, International Court of Justice, Erga omnes obligations.*

**Правовая природа обязательств государств, установленных в декларациях**

АРАЗ АБДУЛЛАСОЙ**

**Резюме**

*В статье говорится о значении международных обязательств в процессе правового регулирования отношений государств в системе международных отношений и о роли института обязательств в деятельности основных субъектов международного права. важность обязательств государств не только в рамках сторон договора, но и с точки зрения интересов государств, имеющих характер нормы erga omnes. Текущая тема исследования обязательств государств в основном посвящена международным обязательствам. Цель – отметить актуальность темы, обратив внимание на важность рассмотрения международных обязательств государств в юридической науке и доктрине. Обязательства, выраженные в различных формах в силу своей юридической природы, анализировались независимо от вида обычного права и договоров.*

**Ключевые слова:** *Государства, международное право, Устав ООН, международные договоры, конвенции, декларации, Международный Суд, обязательства Erga omnes.*

**Redaksiyaya daxil olma tarixi: 23.08.2024**
**Çapa qəbul: 24.12.2024**

* Senior Legal researcher / Institute of Law and Human Rights / Baku State University / email: elektronpocthuquq@gmail.com

** Старший юридический исследователь / Института права и прав человека / Бакинского государственного университета / email: elektronpocthuquq@gmail.com